***PEDAQOJİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ***
***ISSUES OF PEDAGOGICAL COOPERATION***
***ВОПРОСЫ ПЕДАГОГИЧЕСКОГО СОТРУДНИЧЕСТВА***

*UOT 378:62*

***Elvira Haqverdi qızı Kərimova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Tarix və coğrafiya fakültəsinin dekan müavini,*
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*https://orcid.org/0009-0000-3052-1040*
*E-mail:elvira.karimova83@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(6).300-304*

## MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASINDA MÜƏLLİM-VALİDEYN ƏMƏKDAŞLIĞININ ROLU

***Elvira Haqverdi Karimova***
*deputy dean of the faculty of History and ceography*
*of the Azerbaijan State Pedagogical University,*
*doctoral student in the doctor of philosophy program*

## THE ROLE OF TEACHER-PARENT COOPERATION IN THE FORMATION OF TEACHER-PUPIL RELATIONS

***Эльвира Хагверди гызы Керимова***
*заместитель декана факультета Истории и географии*
*Азербайджанского Государственного Педагогического Университета,*
*докторант по программе доктора философии*

## РОЛЬ СОТРУДНИЧЕСТВА УЧИТЕЛЕЙ И РОДИТЕЛЕЙ В ФОРМИРОВАНИИ ОТНОШЕНИЙ УЧИТЕЛЬ-УЧЕНИК

**Xülasə.** Elmi məqalədə, ilkin olaraq, müəllim-valideyn əməkdaşlığı dəstəkləyici mühitin ən mühüm komponentlərindən biri kimi təqdim olunmuşdur. Məktəb və ailə arasındakı əməkdaşlığın əsas funksiyaları, “Azərbaycan Valideyn-Müəllim Assosiasiyası” və onun mahiyyəti, iş funksiyası, funksional vəzifələri göstərilmişdir. Rəsmi hesabatların müəllim-valideyn əməkdaşlığında əhəmiyyəti açıqlanmışdır. Rəsmi hesabatların formaları: şagirdin qeyd kitabçası, nailiyyət kitabçası, sinif jurnalları, elektron cədvəlləri, elektron poçt haqqında geniş məlumat verilmişdir.

Məktəbin ailə ilə fərdi əlaqə formalarından olan “Valideyn günləri” və müəllim-valideyn əməkdaşlığında onun roluna aydınlıq gətirilmişdir. Valideyn iclasları və onların səmərəli təşkili yolları göstərilmişdir. Məktəbin valideynlərlə kollektiv əlaqə formalarından olan ümumməktəb valideyn yığıncaqları haqqında da geniş məlumat verilərək onun həyata keçirilməsinin əhəmiyyəti göstərilmişdir.

Nəticədə isə valideyn birliklərinin başlıca məqsədlərindən biri kimi pedaqoji ideyaların yayılması, valideynlərin maariflənməsi işində onun əhəmiyyətindən bəhs edilmişdir. Ailə ilə real əlaqə yaratmaqda və onlara pedaqoji məsləhətlərin verilməsində ən çətin işin sinif rəhbərinin üzərinə düşdüyü göstərilmişdir.
***Açar sözlər:*** *məktəb, valideyn, şagird, kitabça, hesabat*

**Abstract.** The scientific article initially presented teacher-parent cooperation as one of the most important components of a supportive environment. The main functions of cooperation between school and family are shown. The “Azerbaijan Parent-Teacher Association” and its essence, work function, and functional responsibilities are shown. The importance of official reports in teacher-parent cooperation is explained. Extensive information is provided about the forms of official reports: student's record book, achievement book, class journals, electronic spreadsheets, and e-mail. “Parent Days”, which are one of the

individual forms of contact between the school and the family, and its role in teacher-parent cooperation is clarified. Parent meetings, class parent meetings, and ways to organize them effectively are shown. Extensive information is also provided about school-wide parent meetings, which are one of the collective forms of contact between the school and parents, and the importance of their implementation is shown.

As a result, it was proven that one of the main goals of parent associations is the dissemination of pedagogical ideas and the education of parents. It was shown that the most difficult task in creating real contact with the family and providing them with pedagogical advice falls on the class teacher.

***Keywords:*** *school, parent, student, booklet, report*

**Аннотация.** В научной статье изначально представлено педагогическо-родительское сотрудничество как один из важнейших компонентов поддерживающей среды. Показаны основные функции взаимодействия школы и семьи, «Азербайджанская ассоциация родителей и учителей», её сущность, функции работы и функциональные задачи. Показана важность официальных отчётов в педагогическо-родительском сотрудничестве. Представлена обширная информация о формах официальных отчётов: зачётная книжка, журнал достижений, классный журнал, электронные таблицы, электронная почта. Рассмотрены «Родительские дни» – одна из форм индивидуального контакта школы с семьёй, и их роль в педагогическо-родительском сотрудничестве. Представлены родительские собрания и способы их эффективной организации. Также представлена обширная информация об общешкольных родительских собраниях – одной из форм коллективного контакта школы с родителями, и показана важность их проведения. В результате выявлено, что одной из основных целей родительских объединений является распространение педагогических идей и их значение в просвещении родителей. Показано, что наиболее сложная задача по установлению реального контакта с семьёй и предоставлению ей педагогических консультаций ложится на плечи классного руководителя.

***Ключевые слова:*** *школа, родитель, ученик, буклет, отчёт*

Məktəbə yeni qədəm qoyan uşaqlar müəllimin səmimi, gülərüz, mehriban siması ilə rastlaşırlar. İlk növbədə, müəllimin nümunəsi şagirdlərə qayğıkeş münasibəti ilə başlayır. Müəllim elə qabiliyyətlərə sahib olmalıdır ki, onların köməyi ilə şagirdlərə mənəvi və idrakı baxımdan təsir göstərə bilsin. Sinifdə sağlam mənəvi-psixoloji mühitin yaradılması üçün bu, çox vacib amildir. A. İsmayılova yazır: "Məktəbdə ilk növbədə yaxşı insan formalaşmalıdır, milli, mənəvi və bəşəri dəyərləri özündə əks etdirməlidir. Cəmiyyətə faydalı yetişməlidir. Məktəb tək bilik vermir, həmçinin şəxsiyyətin düzgün yetişməsinə köməklik edir. Bu şəxsiyyət səriştəli müəllimin rəhbərliyi və istiqaməti ilə bacarıq və vərdişləri daha çox inkişaf etdirir."(1, s.1-5) Həyat dönə-dönə sübut etmişdir ki, məktəb şagirdlərin təlim-tərbiyəsinin öhdəsindən yüksək səviyyədə gəlməkdə valideynlərin, bütövlükdə ictimaiyyətin köməyinə ehtiyac duyur. Məktəblə valideynlərin müntəzəm , sıx əlaqəsi uşağın təlim-tərbiyəsinin uğurlu nəticəsi üçün əsas şərtlərdən biridir. Uşağın xoşbəxt insan kimi formalaşması üçün məktəblə ailənin birgə işi həlledici amildir. S. Quliyeva yazır: Valideyn-müəllim əməkdaşlığında iki aspekt göstərir:

1) Valideynlər mütəmadi olaraq övladlarının təhsilə marağı, sinif yoldaşları və müəllimləri ilə ünsiyyət bacarıqları, davranışı, dərsə davamiyyəti, təlim nailiyyətləri, peşə maraqları haqqında məlumat alır, övladlarının oxuduğu sinifdə təhsil prosesinin təşkili ilə tanış olurlar.

2) Valideynlər məktəbin təşkil etdiyi tədbirlərdə, seminarlarda, uşaqların təlim-tərbiyəsinə həsr olunmuş layihələrin təqdimatlarında, valideyn iclaslarında, məktəbin idarə edilməsində iştirak etməklə maariflənir, öz pedaqoji bacarıqlarını artırırlar"(2, s.67- 80).

Dəstəkləyici mühitin komponentlərindən biri də müəllim-valideyn əməkdaşlığıdır. Buraya daxildir:

1) müasir tələblərə cavab verən sinif otaqları;

2) peşəkarlığı yüksək olan müəllim;

3) kömək etməyə hazır əməkdaşlar;

4) əlavə tədris vəsaitləri;

5) əməkdaşlıq edən müəllim və valideyn.

Pedaqoqlar belə hesab edirlər ki, məktəb və ailə arasındakı əməkdaşlığın bir sıra funksiyaları vardır. Bunlara "məlumatverici, inkişafetdirici, formalaşdırıcı, istirahət və təhlükəsizlik, nəzarəti" (3, s. 10) kimi funksiyaları aid edirlər.

Müasir təlim prosesində fənn kurikulumlarının tətbiqi də valideynləri tədris prosesində fəal iştiraka, buradakı yeniliklərlə maraqlanmağa, onlara münasibət bildirməyə istiqamətləndi-

rir, valideyn-məktəb əlaqələrinin güclənməsinə şərait yaradır.

2003-cü ildə Bakıda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, UNİCEF-in Azərbaycan üzrə nümayəndəliyinin və "Ümidli Gələcək" Gənclər Təşkilatının əməkdaşlığı və təşəbbüsü ilə "Azərbaycan Valideyn-Müəllim Assosiasiyası" yaradılmış və ilkin olaraq 5 pilot məktəbində fəaliyyətə başlamışdır. Assosiasiyanın üzvləri dərsliklərin, dərs vəsaitlərinin, məktəbdə, təlim prosesində istifadə olunan resursların hazırlanmasında yaxından iştirak etmişlər.

Hal-hazırda Assosiasiyanın fəaliyyətini tam sərbəst, müstəqil, şəffaf, məhsuldar şəkildə təmin etmək üçün onun sədri, müavinləri, hətta maliyyə məsələlərinə nəzarət edən şəxs və üzvləri vardır.

AVMA nümayəndələri yalnız məktəbin daxilində olan məsələlərə, problemlərə deyil, eyni zamanda məktəbin yaxınlığındakı təhlükəli ərazilərə baxış keçirirlər. Mövcud olan təhlükələr haqqında və təhlükəli ərazilər barədə polis əməkdaşlarına məlumat verirlər.

"Azərbaycan Valideyn-Müəllim Assosiasiyası"nın iş funksiyasına aşağıdakılar daxildir:

- əlverişli yerli təhsil mühitinin saxlanılması və təhsil tədbirlərinin keçirilməsi üçün valideynlərlə əməkdaşlığın əldə edilməsi;
- məktəb mühitində asayişin qorunması;
- təhsildə könüllülük işi (məsələn, siniflərdə hekayələr oxumaq);
- valideynlər və müəllimlər arasında qarşılıqlı anlaşmanı təşviq etmək üçün valideynlərin fikirləri və ya xahişləri barədə müəllimləri məlumatlandırmaq;
- "Azərbaycan Valideyn-Müəllim Assosiasiyaları" xəbərlərinin dərci;
- eyni zamanda valideynlər və müəllimlər üçün təhsil və valideynlik mövzusunda seminarlar keçirmək;
- mühazirələr, müzakirələr, tədris səfərləri təşkil etmək.

AVMA-nın funksional vəzifələri:

- Valideynlərin məktəb fəaliyyətinə cəlb edilməsinə köməklik etmək;
- Məktəb-valideyn arasında əlavə ünsiyyət vasitəsi kimi çıxış etmək.
- Rəsmi olaraq tanınmış xeyriyyə təşkilatları ilə birlikdə müxtəlif sosial əhəmiyyətli tədbirlərin təşkilinə təşəbbüs göstərmək və həyata keçirmək.

Valideyn-tədris yığıncaqlarında müəllimlər valideynlərə məktəbin təhsil siyasətini izah edir, valideynlər isə rəhbərlərə, qəyyumlara və müəllimlərə arzularını bildirirlər. Müəllimlərlə birlikdə sinifdəki problemləri, məktəbin ümumi təhsil problemlərini müzakirə edirlər. Valideyn-müəllim görüşlərinin təşkili ilə müəllimlər və valideynlər arasında qarşılıqlı anlaşma, dostluq, yardımlaşma kimi keyfiyyətlər də təşviq edilə bilər. G. Kazımova yazır:" Aparılan tədqiqatlara əsasən, valideynləri tədris prosesində fəal olaraq iştirak edən şagirdlər daha yaxşı nəticələr əldə edirlər. Onlar, daha yaxşı qiymətlər alır, daha yüksək akademik nailiyyətlərə sahibdirlər, ev tapşırıqları daha keyfiyyətli şəkildə yerinə yetirilmiş olur. Onların davamiyyət göstəriciləri daha yüksəkdir və onlar pozitiv hərəkətləri ilə fərqlənirlər. Məktəbə qarşı daim xoş əhval ruhiyyə də olurlar. Özlərinə və imkanlarına inamları var. Valideynlərin cəlb edilməsi tədris müəssisələri tərəfindən də müsbət qiymətləndirilir"(4, s.181-183).

Valideynlə əməkdaşlıq etməyin digər bir neçə yolu vardır. S. Yusifova bu əməkdaşlığın möhkəmləndirilməsində rəsmi hesabatların önəmli olduğunu göstərmişdir. O, bu rəsmi hesabatların formalarına aşağıdakıları daxil etmişdir:

1. Şagirdin qeyd kitabçası;
2. Nailiyyət kitabçası;
3. Sinif jurnalları;
4. Elektron cədvəlləri;
5. Elektron poçtu ( 5, s. 49-52).

Şagirdin qeyd kitabçası şagirdin birillik fəaliyyəti haqqında məlumat almağa yardım göstərir. Kitabçada hər gün üçün bir səhifə yer ayrılır ki, bu səhifədə həmin gün üçün dərs cədvəli və müəllimlərin bu dərslərdə şagirdin fəaliyyətini əks etdirən qeydləri yazılır. Kitabçanın sonunda müəyyən bir yer ayrılır və burada şagirdin fənlər üzrə kiçik və böyük summativ qiymətləndirmə nəticələri öz əksini tapır.

Nailiyyət kitabçası şagirdin 11 illik təhsili və nailiyyətləri haqqında nəticə çıxarmağa imkan verir. Bu kitabça hər bir təhsil pilləsi üçün və ya bütün ümumi təhsil üçün tərtib oluna bilər. Kitabçada hər sinif üçün iki səhifə ayrılır. Burada hər sinifdə tədris olunan fənlərin siyahısı və bu fənlər üzrə böyük summativ qiymətləndirmənin nəticələri öz əksini tapır. Kitabçanın sonunda əlavə qeydlər üçün bir neçə səhifəlik yer də ayrılır. Bu hissədə şagirdin ümumi təhsil müd-

dətində əldə etdiyi xüsusi nailiyyətlər (olimpiada nəticələri, fəxri fərmanlar) və məktəb psixoloqunun şagirdlər haqqında qeydləri, tədris müddətində şagirddə yaranmış psixoloji problemlər və onların aradan qaldırılması üçün atılan addımlar ifadə olunur. Bu kitabça valideynə, müxtəlif fənn müəllimlərinə və məktəb rəhbərliyinə şagirdin bütün tədris müddətində təlim və tərbiyə prosesini izləməyə imkan verir.

Sinif jurnalları müəllimin və şagirdin fəaliyyəti, qiymətləndirmə nəticələri haqqında məlumat almağa kömək edir. Jurnalda hər bir fənn üzrə şagirdlərin:

- kiçik və böyük summativ qiymətləndirmə nəticələri;
- keçilən mövzular;
- kiçik summativ qiymətləndirmə məqsədi ilə aparılan yoxlamaların mövzuları əks olunur.

Jurnalın sonunda davamiyyəti əks etdirən xüsusi səhifə vardır.

Elektron cədvəllər ayrı-ayrı məktəblərin göstəricilərinin, keyfiyyət dərəcələrinin yoxlanılmasına və təhlilinə şərait yaradır. Bu cədvəllər vasitəsilə hər bir sinfin və ya məktəbin nəticələri haqqında həm müvafiq təşkilatlara, həm də ictimaiyyətə məlumat çatdırmaq olar. Cədvəllərdə, əsasən, böyük summativ qiymətləndirmənin nəticələri əks olunur. Cədvəllər müxtəlif məzmunlu ola bilər və belə cədvəllərin ən başlıca üstünlüyü həm də valideynlərin məktəb seçiminə yardım etməsidir.

Elektron poçt valideynlərlə birbaşa ünsiyyətin qurulmasına, övladlarının nailiyyətləri barədə onların xəbərdar olmasına imkan yaradır.

Adları çəkilən rəsmi hesabatlarla yanaşı, valideynlərlə ildə ən azı 4 dəfə fərdi söhbət aparılmalı və aşağıdakı məsələlər birgə müzakirə olunmalıdır:

- şagirdin nizam-intizamı;
- şagirdin dərslərə davamiyyəti;
- şagirdin psixoloji və ünsiyyət problemləri, onların aradan qaldırılması yolları;
- şagirdin təlim nailiyyətləri, uğursuzluqları və s.

Valideynlərlə keçirilən görüşlərin qeydiyyatı, söhbətin mövzuları, şagirdin ailə şəraiti haqqında qeydlər müəllim tərəfindən sistemləşdirilərək şagirdin portfoliosunda yerləşdirilməlidir.

Məktəbin ailə ilə fərdi əlaqə formalarından biri “Valideyn günləri”nin keçirilməsidir. Adətən, ildə bir neçə dəfə keçirilən bu günlərdə bütün müəllimlər müəyyən olunmuş vaxtda məktəbdə olur və hər müəllim onun üçün ayrılmış otaqda valideynləri qəbul edir. Burada məqsəd onlara ayrılıqda məsləhət verməkdir. Hansı müəllimin hansı sinifdə məsləhət verdiyi məktəbin girəcəyində və ya müəllimlər otağının qapısında ümumi siyahıda yazılır. Hər otağın qapısında müəllimin adı, soyadı, hansı fəndən, hansı sinifdə dərs deməsi haqqında yazılı məlumat vurulur.

Valideyn günləri valideynlərin istədikləri müəllimlərlə görüşünü keçirmək üçün çox münasibdir. Valideyn məktəbə bir dəfə gəlməklə övladına dərs deyən bütün müəllimlərlə görüşməyə imkan tapır. Bu görüş zamanı valideynlər övladının təlim-tərbiyəsi ilə bağlı onları maraqlandıran məsələləri müəllimlərdən öyrənir, uşağın tərbiyəsi üçün vahid hərəkət xətti müəyyənləşdirirlər.

Bir çox məktəblərdə valideyn günləri maraqlı formalarda təşkil olunur; valideynlər müəllimlərdən məsləhət almaqdan əlavə, mühazirə və söhbətlərə qulaq asır, kinofilmlərə baxırlar. Eyni zamanda öz övladlarının əl işləri və yeni pedaqoji ədəbiyyatla tanış olur, ailə tərbiyəsinə aid biliklərini mübadilə edirlər. Hər valideyn günündə valideynlər çox da böyük olmayan 15-20 dəqiqəlik bir-iki mühazirə və ya söhbəti dinləyir, onları maraqlandıran məsələlər üzrə mühazirəçiyə suallar verirlər.

Məktəbin valideynlərlə kollektiv əlaqə formalarından olan ümumməktəb valideyn yığıncaqları məktəbin əksər valideynlərini əhatə etməklə, ildə 2-3 dəfə keçirilir. Ümumməktəb yığıncaqlarında valideynləri məktəbin həyatındakı hadisələrlə, məktəbin işi ilə, onun müvəffəqiyyət və problemləri, qarşıda duran vəzifələri ilə tanış edirlər. Bu yığıncaqlarda, adətən, bütün siniflərdə oxuyan şagirdlərin valideynlərini eyni dərəcədə maraqlandıran məsələlər müzakirə edilir.

Təhsilin ilk günlərindən məktəblə ailə arasında əlaqələr formalaşır. Məktəb vasitəsilə ailələr təhsildə baş verən yeniliklərdən, yeni islahatlardan xəbərdar olurlar. Ailələr bu islahatların mahiyyətini dərk edərək mümkün qədər məktəbə kömək etməyə çalışırlar. Onlar dərk edirlər ki, uşaqların tərbiyəsi təkcə ailənin işi deyil, bu, həm də ictimai vəzifədir. Çox hallarda ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti üçün vahid plan tərtib olunur. Bəzi məktəblərdə məktəb-ailə kompleksləri yaradılır.

Valideyn birliklərinin başlıca məqsədlərindən biri pedaqoji ideyaları yaymaqdır. Bu birliklərə daxildir: valideyn komitələri, şuraları, konqresləri, yardım cəmiyyətləri, rəyasət heyətləri, komissiyalar, klublar və s. Bu birliklərdən hər birinin öz nizamnaməsi (əsasnaməsi, planı) vardır. Dəyirmi masalar, konfranslar, mühazirələr və s. tədbirlər valideynlərə çox kömək edir. Ailə ilə real əlaqə yaratmaqda ən çətin iş sinif rəhbərinin üzərinə düşür. Bu işin mühüm hissəsini müntəzəm olaraq şagirdlərin evlərinə getmək, ailə ilə daim ünsiyyətdə olmaq təşkil edir. Sinif rəhbəri ailələrə pedaqoji məsləhətlər verir, yaranan problemləri aradan qaldırmaq üçün tədbirlər müəyyənləşdirir. Valideyn toplantıları zamanı sinif rəhbərindən çox böyük ustalıq tələb olunur. Şagirdi və onun valideynini digər valideynlərin yanında təhqir etmək, kobud davranmaq olmaz.

Valideyni məktəbə dəvət etmək davamlı olmalıdır. Humanistyönlü məktəblərdə valideynlərə şagirdin uğurları haqqında mütəmadi olaraq məlumat vermək, onun gələcək fəaliyyətini daha da yaxşılaşdırmaq üçün valideynin məktəbə dəvət olunması çox müsbət nəticələr verir.

Avtoritar rejimli məktəblərdə isə valideynin məktəbə dəvət olunması üçün yalnız bir səbəb var: şagirdin təhsilindən və davranışından narazılıq. Tədqiqatlar göstərir ki, bu səbəbdən məktəbə dəvət olunan valideynlərdə neqativ emosiyalar yaranır və məktəbə qarşı onlarda bəzi hallarda narazılıq formalaşır.

**Problemin aktuallığı.** Məktəbdə təhsil nailiyyətlərinin təmin olunması, ilkin olaraq müəllim-şagird münasibətlərinin formalaşmasından başlayır. İnkişafımızın dəyişkən və mobil olması ilə bağlı tələblər tez-tez dəyişir və müəllim-şagird münasibətlərinin davamlı olaraq aktuallığını şərtləndirir.

**Problemin elmi yeniliyi.** Məqalədə müəllim-valideyn əlaqələrinin yeni təhsil şəraitində əməkdaşlıq prinsipi əsasında qurulması və şagirdlərin fəal təlim mühitinə yönəldilməsi əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Müəllim-şagird münasibətlərinin formalaşdırılmasında müəllim-valideyn əlaqələrinin roluna dair müddəalardan irəli gələn və şagird inkişafını dəstəkləyən praktik nümunələrin faydalılığı və əhəmiyyəti nəzərə alınmışdır.

## Ədəbiyyat


1. İsmayılova, A. Şagird şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin təsiri //–Bakı: Bakı Qızlar Universitetinin Elmi Əsərləri, –2019. № 1, –s.1-5.
2. Quliyeva, S. Azərbaycanda ailə-məktəb əməkdaşlığının formalaşdırılması modelləri // –Bakı: Məktəbəqədər və ibtidai təhsil, –2020. № 3, –s.67-80.
3. Təhsilin inkişafında məktəb və ictimaiyyətin rolu / Z.B. Muradova, K.V Mikayılova, T.H. Muradlı [və b.] – Bakı: Zəngəzur çap evi, –2014. –107s.
4. Kazımova, G. Müəllim-şagird münasibətlərinin formalaşmasında müəllim-valideyn əməkdaşlığının rolu //-Bakı: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, –2016. № 2, –s.181-183
5. Yusifova, S. Valideyn dəstəkləyici mühitin yaradılmasında mühüm amil kimi // –Bakı: Kurikulum, –2010. № 3, –s. 49-52.


**Redaksiyaya daxil olub:** 01.10.2025